# "Heydər Əliyev və vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib

**Tərtərdə "Heydər Əliyev İli" çərçivəsində Gənclər günü münasibətilə ümumrayon tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəl mərkəzi meydanda Ulu Öndərin abidəsini, sonra isə Şəhidlər Abidə Kompleksini ziyarət ediblər.**



Tərtər Rayon İcra Hakimiyyətində davam edən tədbirdə Ümummilli Liderin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib. Sonra Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Emin Pənahov bildirib ki, dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur: "Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi illərində keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərdiyi gənclər bu gün ixtisaslı mütəxəssislər kimi müstəqil ölkəmizin inkişafında fəal iştirak edirlər. Ulu Öndər gənclərə arxalandığı kimi, gənclər də onu böyük lider, əvəzolunmaz şəxsiyyət, milli dövlət quruculuğunun banisi kimi qəbul edirlər".

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov gəncləri Gənclər Günü münasibətilə təbrik edərək ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirmişdir. O, Azərbaycanda bu gün həyata keçirilən gənclər siyasətinin gənc nəslin hərtərəfli inkişafı üçün şərait yaratdığını, onları vətənpərvər ruhda formalaşdırdığını, 44 günlük Vətən müharibəsinin Azərbaycan gəncinin vətənpərvərliyini, gücünü, əzmini bütün dünyaya nümayiş etdirdiyini vurğulamışdır. M.Məmmədov çıxışını əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin davamçısı Prezident İlham Əliyevin Azərbaycan gənclərinin vətənpərvərliyi barədə dediyi sözlərlə bitirmişdir: "Biz qəlbində güclü Vətən sevgisi olan gənc nəsil yetişdirdik. Hətta torpaqlarını görməyən gənclər bir arzu ilə yaşayıb ki, ədalət bərpa olunsun və onlar öz doğma torpaqlarına qayıtsınlar."

Tədbirin sonunda rayonun içtimai-siyasi həyatında fəal iştirak edən bir qrup gəncə rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası rayon təşkilatı tərəfindən Fəxri fərman, Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri, iki nəfərə isə "Vətən müharibəsi iştirakçısı" medalı təqdim olunmuşdur.

* * *

İmişlidəki Heydər Əliyev Mərkəzində Gənclər Günü ilə bağlı "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin, habelə Vətənimizin azadlığı və suverenliyi uğrunda canından keçən şəhidlərimizin xatirələrini birdəqiqəlik sükutla yad etmişlər. Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunmuşdur.

Çıxış edənlər bildirmişlər ki, Ümummilli Liderin dövlətçilik irsini öyrənən və təbliğ edən gənclərlə bağlı irimiqyaslı proqramların həyata keçirilməsinə dəstək verən Prezident İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da həm özünün ictimai-siyasi fəaliyyətində, həm də rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi bütün tədbirlərdə gənc nəslin sağlamlığını, intellektual və fiziki inkişafını daim diqqət mərkəzində saxlayırlar.

Tədbirin sonunda bir qrup gəncə rayon icra hakimiyyətinin Fəxri fərmanları təqdim edilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***